1_Layout 1 28.07.2026 11:55 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 14 (726)

31 iyul 2026-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# AZƏRBAYCAN QLOBAL MİQYASDA MÖVQEYİNİ MÖHKƏMLƏNDİRİR

## Bunu Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri də təsdiqləyir

**“Azərbaycan” qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu “Azərbaycan qlobal miqyasda mövqeyini möhkəmləndirir” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**



Müstəqil, çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursu həyata keçirən Azərbaycan regional çərçivələri aşaraq qlobal miqyasda söz sahibi olan “orta güc” kimi mövqeyini gündən-günə möhkəmləndirir.

Ölkəmizin mühüm geosiyasi və geoiqtisadi məsələlərdə prinsipial və ədalətli mövqe ortaya qoyması onun beynəlxalq nüfuzunu keyfiyyətcə yeni pilləyə qaldırıb. Xüsusilə Avropa dövlətləri və Avropa İttifaqı (Aİ) institutu ilə dinamik və yüksəksəviyyəli əlaqələrin qurulması xarici siyasətimizin prioritet istiqamətlərindən birini təşkil edir. Aİ-yə üzv olan ölkələrin dövlət və hökumət başçılarının, həmçinin Aİ-nin ali rəhbərliyinin Bakıya ardıcıl səfərləri Azərbaycanın regional sabitlik, nəqliyyat-logistika və Avropanın enerji təhlükəsizliyində oynadığı əvəzolunmaz rolun açıq etirafıdır. Avropanın aparıcı sənaye və siyasi mərkəzləri ilə qurulan strateji dialoq, Prezident İlham Əliyevin bu günlərdə Almaniyaya rəsmi səfəri və burada imzalanan tarixi sənədlərlə ölkəmiz növbəti möhtəşəm uğurunu qazandı.

### Yeni əməkdaşlıq çərçivəsi

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın keyfiyyətcə yeni müstəviyə qaldırılmasında mühüm mərhələ oldu. Berlində keçirilən yüksəksəviyyəli görüşlər, imzalanan strateji sənədlər və verilən bəyanatlar Azərbaycan ilə Almaniya arasında tərəfdaşlığın yalnız regional deyil, qlobal geosiyasi çəkiyə malik olduğunu bir daha sübut etdi.

Səfər çərçivəsində Prezident İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts tərəfindən imzalanmış “Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə” münasibətlərin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən təməl sənəd kimi çıxış edir.

Bəyannamə siyasi dialoq, iqtisadiyyat, enerji, təhlükəsizlik, müdafiə, texnologiya, elm və təhsil sahələrini vahid strateji çərçivədə birləşdirir.

Sənəddə nazirlərarası məsləhətləşmələrin və Almaniya-Azərbaycan Yüksək Səviyyəli İşçi Qrupunun fəaliyyəti vasitəsilə əməkdaşlığın davamlılığını təmin etmək əksini tapıb.

Berlində mətbuata bəyanatı zamanı dövlətimizin başçısı bu addımın əhəmiyyətini xüsusi vurğuladı: “Biz artıq strateji dialoqun başlanmasını arzulayırdıq və buna nail olmuşuq. Eyni zamanda iqtisadi əlaqələrin genişləndirilməsi üçün bu gün imzalanmış Birgə Bəyannamə əminəm ki, çox fəal işləyib yaxşı nəticələr hasil edəcəkdir”.

Öz növbəsində mətbuata bəyanatında Kansler Fridrix Merts vurğuladı ki, bu gün Birgə Bəyannaməni imzalamaqla ikitərəfli münasibətlərin daha da genişləndirilməsinin təməl daşı qoyuldu: “Biz Almaniya ilə Azərbaycan arasında münasibətlərin genişləndirilməsinə ciddi yanaşırıq. Hazırkı böhran şəraitində xam neftin və “Cənub qaz dəhlizi” ilə təbii qazın təchizatında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir”.

Məlum olduğu kimi, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm yer tutur. Ölkəmizin bu etibarlı tərəfdaş mövqeyi Berlin danışıqlarının mərkəzi mövzularından biri oldu.

Prezident İlham Əliyev enerji sahəsindəki genişmiqyaslı əməkdaşlıq barədə məlumat verdi: “Bu ildən başlayaraq Azərbaycan öz təbii qazını Almaniyaya ixrac etməyə başlamışdır. Beləliklə, bizim qazımız bu gün Avropa İttifaqına üzv 10 ölkəyə çatdırılır və şübhəsiz, bu, enerji təhlükəsizliyi üçün çox böyük töhfədir. Nəzərə alsaq ki, Azərbaycan öz neftini də Almaniyaya ixrac edir və gələcəkdə “yaşıl enerji”sini də Avropa məkanına çatdırmaq əzmindədir, enerji sahəsində əməkdaşlıq çox genişmiqyaslı olacaqdır”.

Ölkəmizin rəhbəri bağlantılarla və tranzit imkanları ilə bağlı da Azərbaycan-Almaniya əməkdaşlığının çox böyük əhəmiyyəti olduğunu söylədi.

### Böyük iqtisadi imkanlar

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri çərçivəsində aparılan müzakirələrdə Orta dəhlizin və tranzit imkanlarının inkişafı xüsusi yer tutub. Azərbaycanın Mərkəzi Asiya və Avropa arasında körpü rolu oynaması logistika sahəsində alman şirkətləri üçün böyük iqtisadi imkanlar yaradır.

Prezident İlham Əliyev mətbuata bəyanatında nəqliyyat və tranzit potensialı haqqında vurğuladı ki, Azərbaycan öz nəqliyyat infrastrukturunu təkmilləşdirir: “Keçən il Orta Asiya məşvərət formatına tamhüquqlu üzv olmaqla, Azərbaycan bir növ Orta Asiya ilə Avropa arasında körpü rolunu oynayır və bu rol getdikcə artacaqdır. Bir çox istiqamətlər üzrə konkret fəaliyyət planı nəzərdə tutulur. Bu gün imzalanmış Bəyannamənin icrası ilə bağlı fikir mübadiləsi əsnasında konkret təkliflər irəli sürülmüşdür. Bir neçə işçi qrup yaradılacaq ki, bu gün imzalanmış sənədlər tezliklə həyatda öz əksini tapsın”.

Onu da diqqətə çatdıraq ki, Almaniya Prezidenti Frank-Valter Ştaynmayer və Federal Kansler Fridrix Merts ilə keçirilən görüşlərdə Cənubi Qafqazda davamlı sülhün bərqərar olunması istiqamətində əldə edilmiş nailiyyətlər yüksək qiymətləndirilib.

Dövlətimizin başçısı rəsmi Berlinin sülh prosesinə verdiyi töhfələri qeyd edərək bildirib ki, uzun illərdən sonra Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması və sülh sazişinin paraflanması faktiki olaraq 30 il davam edən münaqişəyə son qoydu: “Azərbaycan bu razılaşmadan dərhal sonra praktiki addımlara keçdi... ...Azərbaycan-Almaniya əlaqələri təkcə ikitərəfli münasibətlərə yox, bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə, əmin-amanlığa öz töhfəsini verəcəkdir”.

Səfərin ən mühüm nəticələrindən biri də Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına dair Birgə Bəyannamənin imzalanması oldu. Hazırda Azərbaycanda 200-dən çox alman şirkəti fəaliyyət göstərir və yeni biznes şurasının qarşılıqlı sərmayə qoyuluşlarına əlavə təkan verəcəyi də bəllidir.

Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri və Berlində əldə olunan tarixi razılaşmalar ölkəmizin beynəlxalq münasibətlər sistemindəki yerini və çəkisini bir daha nümayiş etdirdi. Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqlar, Avropanın enerji təhlükəsizliyində oynadığı strateji rol və “Şərq-Qərb” nəqliyyat dəhlizlərinin mərkəzi qovşağına çevrilməsi onu regional çərçivələri aşan qlobal tərəfdaş səviyyəsinə yüksəldib.

Almaniya kimi Avropanın aparıcı siyasi və iqtisadi gücü ilə imzalanmış “Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə” yalnız iki ölkə arasındakı münasibətlərin institusionallaşdırılması ilə məhdudlaşmır. Bu sənəd, həmçinin Azərbaycan-Avropa İttifaqı əlaqələrinin gələcək inkişaf istiqamətini müəyyən edir, regionda davamlı sülhün və iqtisadi inteqrasiyanın möhkəmlənməsinə xidmət göstərir.

Bir sözlə, digər Avropa ölkəsi İtaliyadan sonra Almaniya ilə də belə bir strateji çərçivənin qurulması Azərbaycanın xarici siyasətinin növbəti parlaq zəfəridir. Bütün bunlar bir daha sübut edir ki, müasir Azərbaycan etibarlı, öz milli maraqlarını qətiyyətlə qoruyan və regional sabitliyin əsas zəmanətçisi kimi çıxış edən aparıcı “orta güc”dür.

## Daxili işlər naziri Vilayət Eyvazov Şuşada slovakiyalı həmkarı ilə görüşüb



İyulun 14-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Şuşa şəhərində ölkəmizdə səfərdə olan Slovakiya Respublikasının daxili işlər naziri Matuş Şutay-Eştok və rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə iki ölkənin daxili işlər nazirlikləri arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

V.Eyvazov Daxili İşlər Nazirliyinin fəaliyyət istiqamətləri, ölkədəki kriminogen durum və vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində görülən işlər barədə məlumat verib.

Tərəflər transmilli mütəşəkkil cinayətkarlıq, narkotik və silahların qanunsuz dövriyyəsi, insan alveri, qeyri-leqal miqrasiya və kibercinayətkarlıqla mübarizədə birgə səylərin, müasir texnologiyaların tətbiqinin və operativ informasiya mübadiləsinin əhəmiyyətini vurğulayıblar.

Matuş Şutay-Eştok yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib, əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını qeyd edib.

Görüş zamanı nazirlər daxili işlər sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıblar.

Görüşdə hər iki ölkənin fövqəladə və səlahiyyətli səfirləri də iştirak ediblər.

**DİN-in Mətbuat xidməti**

## Daxili İşlər Nazirliyində xidmətə qəbul üçün növbəti sıra baxışı keçirilib





Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 27-də respublikanın şəhər, rayon polis orqanları və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 167 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 29.07.2026 17:12 Page 1



## JANDARM BAŞ KOMANDANLIĞININ YENİ ZABİT HEYƏTİ HƏRBİ İNSTİTUTDA FƏALİYYƏTƏ BAŞLAYIB

Hərbi İnstitutda bir il müddətində müəllim kimi fəaliyyət göstərmiş Türkiyə Respublikası Jandarm Baş Komandanlığının zabit heyətinin yolasalma, onları əvəz edənlərin isə təqdimolunma mərasimi keçirilib. Mərasimdə daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov iştirak edib.



Azərbaycan ilə Türkiyə arasında mövcud olan qardaşlıq münasibətləri bütün sahələrdə olduğu kimi, hərbi təhsil sahəsində də uğurla inkişaf edir. Qarşılıqlı təcrübə mübadiləsi, müasir tədris metodlarının öyrənilməsi və peşəkar hərbi kadrların hazırlanması istiqamətlərində həyata keçirilən birgə fəaliyyət bu əməkdaşlığın mühüm tərkib hissəsidir. Türkiyə Jandarm Baş Komandanlığının zabitlərinin Hərbi İnstitutda müəllim kimi fəaliyyət göstərmələri də iki qardaş ölkənin hərbi təhsil müəssisələri arasındakı əlaqələrin möhkəmləndirilməsinə xidmət edir.

Birillik fəaliyyət müddətini başa vuran türk zabitləri institutun tədris prosesində yaxından iştirak edib, zəngin xidməti təcrübələri və peşəkar biliklərini kursantlarla bölüşüblər. Tədris etdikləri mövzuların nəzəri əsaslarını praktiki təcrübə ilə əlaqələndirmələri məşğələlərin daha səmərəli təşkilinə imkan yaradıb. Onlar gələcəyin zabitlərinin peşə hazırlıqlarının yüksəldilməsi ilə yanaşı, hərbi intizam, məsuliyyət, vətənpərvərlik və xidmətə sədaqət kimi mühüm mənəvi keyfiyyətlərin aşılanmasına da töhfə veriblər.

Tədris zamanı nəzəri biliklərin xidməti fəaliyyətdən götürülmüş praktiki nümunələrlə əlaqələndirilməsi kursantların gələcək xidmət vəzifələrinin icrasına daha yaxşı hazırlanmalarına, onlarda müstəqil qərarvermə, təşəbbüskarlıq və məsuliyyət kimi mühüm keyfiyyətlərin formalaşdırılmasına müsbət təsir göstərib. Zabit heyətinin Hərbi İnstitutun professor-müəllim heyəti ilə qarşılıqlı əməkdaşlığı qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi, müasir metodiki yanaşmaların tətbiqi və təcrübə mübadiləsinin genişləndirilməsi baxımından da əhəmiyyətli olub. Bu fəaliyyət Hərbi İnstitutun tədris və elmi-pedaqoji potensialının inkişafına, eyni zamanda Daxili Qoşunlarda xidmət edəcək, müasir tələblərə cavab verən yüksək hazırlıqlı və peşəkar zabitlərin hazırlanmasına xidmət edib.



Türkiyəli zabitlər də fəaliyyət göstərdikləri müddətdə onlara yaradılan şəraitə, göstərilən diqqət və səmimi münasibətə görə institutun rəhbərliyinə və kollektivinə minnətdarlıqlarını bildiriblər. Azərbaycanda keçirdikləri günlərin və həmkarları ilə qazandıqları dostluq münasibətlərinin yaddaşlarında xoş xatirə kimi qalacağını qeyd ediblər.

Mərasimdə xidmət müddətini başa vuran zabitlərə gələcək fəaliyyətlərində uğurlar arzulanıb. İnstitutda müəllim kimi fəaliyyətə başlayan yeni zabit heyəti isə kollektivə təqdim olunub. Yeni heyətə qarşıda duran vəzifələr və tədris fəaliyyətinin əsas istiqamətləri barədə məlumat verilib, onlara məsuliyyətli fəaliyyətlərində müvəffəqiyyətlər arzulanıb. Vurğulanıb ki, hərbi təhsil sahəsində həyata keçirilən bu əməkdaşlıq yalnız bilik və təcrübə mübadiləsi deyil, eyni zamanda ortaq tarixə, milli-mənəvi dəyərlərə və qarşılıqlı etimada əsaslanan qardaşlıq münasibətlərinin davamıdır.

**polkovnik Vüqar Şirinov**
**Hərbi-elmi şöbənin rəisi**

## İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL (OMBUDSMAN) APARATININ ƏMƏKDAŞLARI DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏSİNDƏ OLUBLAR

“Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatının “Ombudsman təsisatı və hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı aparılan işlər” mövzusunda, həmçinin insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi İnstitutunun və hərbi hissələrinin şəxsi heyəti ilə 2026-cı ildə keçirilməsi nəzərdə tutulan birgə görüşlərə dair tədbirlər planı”na əsasən, iyulun 16-da Azərbaycan Respublikasının Ombudsman Aparatının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının böyük məsləhətçisi Rəşad İsmayılov, Ombudsman Qərb Regional Mərkəzinin rəhbəri Səbuhi Abbasov və Daxili Qoşunların Baş İdarəsinin şəxsi heyət üzrə idarəsinin rəisinin müavini - mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Zamin Rəsulov 16077 saylı hərbi hissədə olublar.



Görüşün keçirilməsində əsas məqsəd Ombudsman Aparatının hərbi qulluqçuların hüquq və azadlıqlarının qorunub saxlanılması sahəsində həyata keçirdiyi fəaliyyət haqqında şəxsi heyətə ətraflı məlumat vermək, hərbi qulluqçuların hüquqi baxımdan maarifləndirilməsini təmin etmək və onları maraqlandıran sualları cavablandırmaq olub.

İlk olaraq, hərbi hissənin ərazisi ilə tanış olan qonaqlar daha sonra xüsusi təyinatlı dəstənin yataqxanasına, tibb məntəqəsinə, anbarlara, hamam-camaşırxana kompleksinə və əsgər yeməkxanasına ümumi baxış keçiriblər. Ombudsman institutunun yaranması və səlahiyyətləri, insan hüquqları, bu əsnada hərbi qulluqçuların hüquqları, Ombudsmanın bu istiqamətdə çoxşaxəli fəaliyyəti barədə məlumat verən Səbuhi Abbasov mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda şəxsi heyətlə söhbətlər aparıb. Hərbi hissədə hüquqi maarifləndirmə, tərbiyə işləri, şəxsi heyətin yüksək döyüş ruhu, psixoloji durumu, Vətənə sədaqət və vətənpərvərlik hisslərinin gücləndirilməsi üçün həyata keçirilən tədbirlərin nəticələri diqqətdə saxlanılan məsələlərdən olub. Həmçinin o, Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordumuzun möhtəşəm hərbi zəfərinin böyük tarixi əhəmiyyətindən danışaraq, ərazi bütövlüyümüzün bərpasında xalqımızın igid övladlarının göstərdikləri qəhrəmanlıq nümunələrinin hər birimizdə haqlı iftixar hissi doğurduğunu qeyd edib, şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərinə və döyüşlər zamanı yaralanmış qazilərə hər zaman yüksək diqqət və qayğı göstərilməsinin vacibliyini hərbi hissə komandanlığının nəzərinə çatdırıb. Onların döyüş yolu və fədakarlığının hazırda xidmətdə olan bütün hərbi qulluqçulara örnək olduğunu xüsusi olaraq vurğulayıb.

Ümumilikdə, hərbi qulluqçular üçün yaradılmış şərait, onlarla rəftar, qida və müalicə işinin keyfiyyəti qurumun əməkdaşları tərəfindən müsbət qiymətləndirilib.



Qeyd edək ki, müvafiq tədbirlər planına əsasən, ilin sonunadək Daxili Qoşunların digər hərbi hissələrində Ombudsman Aparatı əməkdaşlarının şəxsi heyətlə görüşlər keçirmələri nəzərdə tutulur.

**Mətbuat xidməti**

## EKSTREMAL ŞƏRAİTLƏRDƏ QƏTİYYƏTLİ FƏALİYYƏTİN NÜMAYİŞ ETDİRİLMƏSİ NƏZƏRDƏN QAÇMAYAN MƏSƏLƏLƏRDİR

25033 saylı hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri xüsusi təyinatlı dəstədir. İctimai asayişin və təhlükəsizliyin qorunub saxlanılması, hüquqazidd əməllərin qarşısının alınması, silahlı cinayətkarların axtarılıb tutulması və zərərsizləşdirilməsi, qəflətən qarşıya çıxan tapşırıqların icrasına hazır olmaq dəstənin əsas vəzifələrindəndir.





Hərbi hissənin komandiri polkovnik Telman Həsənov xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyəti barədə danışarkən bildirdi ki, mütəmadi olaraq müxtəlif təlimlərə cəlb olunan xüsusi təyinatlılar yüksək peşəkarlıq nümayiş etdirirlər.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Elmin Məmmədov isə dəstənin 2026-cı ilin 1-ci yarımilinin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə liderliyi qoruyub saxladığını nəzərə çatdırdı.

Xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Firat Sadıqov vəzifə borclarından irəli gələn tələblər barədə söylədi ki, hava şəraitindən asılı olmayaraq, hərbi qulluqçularla təlim-məşqlər davamlı olaraq keçirilir. Şəxsi heyətin döyüş təlimi daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir.

Xüsusi təyinatlı bölmənin fəaliyyətinin spesifikliyi barədə söz açan komandir müavini onu da vurğuladı ki, çətin iqlim şəraitində təlimlərin təşkil olunub keçirilməsi xüsusilə diqqət mərkəzində saxlanılır: “Tədris olunmuş müvafiq plana əsasən, məşğələlər bölmənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsi istiqamətində təşkil olunur. Şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsinə, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsinə, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsinə, nizam-intizamın möhkəmləndirilməsinə, sayıqlığın artırılmasına, eləcə də fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsinə istiqamətlənir. Ekstremal şəraitlərdə dayanıqlılığın, mərdliyin və şücaətin, qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi nəzərdən qaçmayan məsələlərdir”.



Mayor F.Sadıqov təlimlər zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına ciddi riayət olunduğunu söylədi, məşğələlərdə hərbi qulluqçuların fəallığını onların mənəvi-psixoloji keyfiyyətlərinin yüksək olması ilə əlaqələndirdi. Bildirdi ki, bölmənin döyüş hazırlığının qorunub saxlanılmasında aparılan keyfiyyətli tərbiyə işinin rolu böyükdür.

Həmçinin dəstənin şəxsi heyəti ilə tərbiyə işi Vətənə sevgi və sədaqət, Azərbaycan Respublikasının qanunlarına, hərbi andın, hərbi nizamnamələrin və əmrlərin tələblərinə sözsüz əməl etmək və rəislərə hörmət ruhunda aparılır. Hərbi qulluqçulara Vətənimizin düşmənlərinə nifrət və nəyin bahasına olursa olsun, torpaqlarımızı müdafiə etməyə hazır olmaq hissləri aşılanır. Bu məqsədlə həftənin 1-ci günləri müxtəlif mövzularda ictimai-siyasi hazırlıq məşğələləri, 2-ci və 4-cü günləri isə tərbiyə işi saatları keçirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının artırılması, qarşıya çıxan tapşırıqların hər an yerinə yetirilməsinə hazır olmaları diqqət mərkəzində saxlanılır.





O, qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının peşəkarcasına və müvəffəqiyyətlə yerinə yetirilməsi üçün şəxsi heyətin bundan sonra da yorulmadan, əzmlə çalışacağını, komandanlığın etimadını doğruldacağını söylədi. İntizamlı və fəal hərbi qulluqçulardan gizir Tural Əliyev, baş çavuşlar Arzu Abdullayev, Rzaqulu Qurbanov və Kənan Kərimovun adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 29.07.2026 15:49 Page 1



# ŞƏHİD HƏRBİ QULLUQÇUMUZUN XATİRƏSİ EHTİRAMLA YAD EDİLİB

44 günlük Vətən müharibəsi zamanı yenilməz ordumuz qanımıza susayan, yurdlarımızı viran qoyan, törətdikləri vəhşiliklərlə insanlıqdan uzaq olan erməni işğalçılarını darmadağın edib, döyüş meydanında misilsiz şücaətlər göstərib.



Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularından biri də çavuş İbadov Cavad Cabir oğludur. Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır.

25033 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən xüsusi təyinatlı dəstənin bir qrup hərbi qulluqçusunun çavuş C.İbadovun Masallı rayonunun Digah kəndində yaşayan ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür. İlk olaraq şəhidin məzarı ziyarət olunub, xatirəsi anılıb.

Hərbi qulluqçularımız şəhidin ailə üzvləri ilə görüşüblər. Söhbət zamanı onlar Cavadın ömür yolu barədə xatirələrini danışıblar. Atası Cabir kişi bildirib ki, ailənin sonbeşiyi olan Cavad qayğıkeş, xeyirxah, ədəb-ərkanlı, təmkinli, istedadlı bir gənc idi. Yeniyetmə yaşlarından idmana maraq göstərib, fiziki hazırlığına daim diqqət yetirib. 2015-ci ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 17071 saylı hərbi hissəsinin təminat və komendant bölüklərində xidmət keçib. 2016-cı ildə isə öz arzusu ilə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 17072 saylı hərbi hissədə müxtəlif vəzifələrə təyin edilib. Funksional vəzifələrini məsuliyyətlə yerinə yetirərək komandanlığın etimadını doğruldub.

Silahdaşları da Cavadın xidmət və döyüş yolu barədə xatirələrini bölüşüblər. Qeyd ediblər ki, Cavad xaraktercə sakit, təvazökar, böyük-kiçik yeri bilən, ləyaqətli, dostluqda sadiq, intizamlı, özünə qarşı tələbkar, hərtərəfli hazırlığa malik, hərbi kollektivin mənafeyini üstün tutan hərbi qulluqçu kimi yaddaşlarda qalıb.



44 günlük Vətən müharibəsi zamanı Kəlbəcər, Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazilərində erməni işğalçılarına qarşı qətiyyətlə vuruşub. Bir sıra yaşayış məntəqələri və yüksəkliklərin alınmasında igidlik göstərib. Döyüşçü yoldaşları yaralandıqda dərhal özünü onlara yetirib, ilk yardım göstərməyə kömək edib. Müharibənin əzab-əziyyətləri qarşısında dözüm və iradəsi büdrəməyib.

Füzuli Rayon Qeydiyyat Şöbəsindən verilən ölüm haqqında şəhadətnamədə çavuş C.İbadovun 2020-ci il oktyabrın 15-də Xocavənd rayonunda hərbi əməliyyat nəticəsində qəlpələrlə zədələr, travmatik şok, hər iki baldırın amputasiyası səbəbindən şəhid olduğu barədə qeydlər öz əksini tapıb. Şəhid hərbi qulluqçumuzun nəşi 2020-ci il noyabrın 29-da ailəsinə təhvil verilib və həmin tarixdə Masallı rayonunun Digah kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il, 25 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli sərəncamları ilə çavuş C.İbadov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Cavad subay idi, bütün gənclər kimi o da xoşbəxt olmağı arzulayırdı. Ancaq hər bir şəhidin taleyinə ürəyində Vətən sevgisinin, imanın işıq saldığı müqəddəs yol yazılıb, hansı ki, son ünvanı şəhadətdir. Valideynləri, qardaşı Cavid üçün ən böyük təskinlik budur.

**kapitan Xədicə Hacızadə**

# DÖYÜŞ HAZIRLIĞININ YÜKSƏLDİLMƏSİ MƏQSƏDİLƏ HƏRBİ QULLUQÇULARIN TƏLİMLƏRİNƏ CİDDİ DİQQƏT YETİRİLİR

16077 saylı hərbi hissənin ayrı yerləşən xüsusi vasitələrin tətbiqi dəstəsi həm müasir infrastrukturu, həm də xidməti fəaliyyəti ilə fərqlənir. Məlumat üçün bildirək ki, dəstə ilə tanışlığımız zamanı hərbi qulluqçuların istifadəsinə verilən kazarmada, eləcə də ərazidə həqiqətən də göz oxşayan səliqə-sahmanın olması diqqətimizi cəlb etdi.



Dəstə komandiri polkovnik-leytenant Nurlan Məmmədov ictimai qaydanın və təhlükəsizliyin təmin olunması üzrə tabeliyində olan şəxsi heyətin qarşısına mühüm vəzifələrin qoyulduğunu bildirdi. Qeyd etdi ki, qarnizonda qəflətən qarşıya çıxan tapşırıqların icrasına, xüsusi tədbirlərin keçirilməsi zamanı bölmələrin dəqiq, mütəşəkkil və birgə fəaliyyətinə nail olmaq, idarəetmənin vəziyyətinin yaxşılaşdırılması sahəsində kəsərli tədbirlər həyata keçirmək, zərurət olduqda Vətənin müdafiəsi üzrə döyüş əməliyyatlarında iştirak etmək əsas vəzifələrdəndir. Habelə şəxsi heyət arasında nizam-intizamı möhkəmləndirmək, gündəlik fəaliyyətdə qanunçuluğa riayət olunmasını, təhlükəsizlik qaydalarına əməl edilməsini tələb etmək də xidmətin əsasıdır.



Zabit gündəlik fəaliyyət haqqında məlumat verərkən söylədi ki, bölük növbətçisi və bölüyün gün növbətçisi, nəzarət-buraxılış məntəqəsi növbətçisinin köməkçisi, park, eləcə də əsgər yeməkxanası naryadına xüsusi vasitələrin tətbiqi və təminat bölüklərinin şəxsi heyəti cəlb olunur. Hər bir xidmətin təşkili aidiyyəti hərbi qulluqçular tərəfindən diqqət mərkəzində saxlanılır.

Müasir avadanlıqlarla təchiz olunmuş tibb məntəqəsi, əsgər yeməkxanası və parkda xidmətin təşkili qənaətbəxşdir.

Döyüş hazırlığının yüksəldilməsi məqsədilə hərbi qulluqçuların təlimlərinə ciddi diqqət yetirilir. Komandir heyəti ilə məşğələlərdə isə şəxsi heyətlə iş metodu və üsulları müəyyənləşdirilir, müvafiq tapşırıqlar verilir. Şəxsi heyətin nəzəri biliklərini və praktiki fəaliyyətini şəxsən yoxlayan zabitimiz daxili qayda-qanuna ciddi riayət olunmasını nəzarətdə saxlayır. Tabeliyində olan hərbi qulluqçulardan təhkim olunmuş silah və xüsusi vasitələrin təyinatını, döyüş xüsusiyyətlərini bilmələrini, onlardan istifadə zamanı təhlükəsizlik qaydalarına əməl etmələrini tələb edir.

Şəxsi heyət arasında sağlam mənəvi-psixoloji durumun formalaşması və yoldaşlıq münasibətlərinin düzgün istiqamətdə inkişafı, eləcə də xidmətə yeni qəbul olunmuş hərbi qulluqçuların kollektivə uyğunlaşmaları da önəm verilən əsas məsələlərdir. Bu istiqamətdə xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini mayor Ruslan Abbasovun fəaliyyəti müsbət xarakterizə edilir.

Polkovnik-leytenant N.Məmmədov dəstənin ictimai həyatında, keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən, həmçinin funksional vəzifələrinin öhdəsindən layiqincə gələn, digər hərbi qulluqçulara nümunə olan baş çavuşlar Mehrac Qarayev, Bəxtiyar Məmmədli, Abbasəli Qurbanov, Yusif Rəcəbov, çavuş Azər Əbilhəsənov və əsgər İlkin Gülməmmədlinin adlarını çəkdi.

**kapitan Nigar Ağayeva**

*Şəhidlərimiz*

# SƏNGƏRDƏ DÜŞMƏN GÜLLƏSİNƏ SİNƏ GƏRDİ VƏ MÜQƏDDƏS MƏQAMA UCALDI...

1991-ci il oktyabrın 18-də Azərbaycan öz dövlət müstəqilliyini bərpa edib, xalqımız uzun illər arzuladığı azadlığına qovuşub. Ancaq həmin dövrdə ölkəmiz Ermənistanın hərbi təcavüzünün genişlənməsi və Qarabağda erməni separatizminin daha da kəskinləşməsi gerçəkliyi ilə üz-üzə qalıb. 1992-1994-cü illərdə respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda ağır döyüşlər gedib, amansız müharibə Vətənimizə qanlı faciələr gətirib. Birinci Qarabağ müharibəsi nəticəsində ölkəmizin ərazisinin iyirmi faizi işğal olunub, bir milyon nəfərə yaxın vətəndaşımız məcburi köçkün vəziyyətinə düşüb.

Məhz Ulu Öndər Heydər Əliyevin xalqın çağırışı ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan öz müstəqilliyini və dövlətçiliyini itirmək təhlükəsindən qurtulub, daxili qarşıdurmalara, hərc-mərcliyə son qoyulub, ictimai-siyasi sabitlik təmin edilib, orduda vahid komandanlıq bərqərar olunaraq ön cəbhədə düşmənin istilasının qarşısı alınıb, bəzi ərazilərimiz işğalçılardan təmizlənib və atəşkəs sazişi imzalanıb.

Birinci Qarabağ müharibəsi dövründə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti erməni işğalçılarına qarşı mətinliklə döyüşərək çətin sınaqlardan keçib. Hərbi qulluqçularımızdan 682 nəfər həmin vaxt şəhidlik zirvəsinə ucalıb. Şəhidlərin siyahısında əsgər Cəbrayılov Rizvan Həsən oğlunun da adı var.

1975-ci il aprelin 10-da Quba rayonunun Təngəaltı kəndində anadan olmuş Rizvan çoxuşaqlı ailədə böyüyüb. Həsən Cəbrayılov və Füruzə Cəbrayılova 5 oğul və 2 qız övladı boya-başa çatdıraraq, onları adət-ənənələrimiz, mənəvi dəyərlərimiz ruhunda tərbiyə ediblər. Ailəsini sevən, valideynlərinə həmişə ehtiramla yanaşan Rizvan öz təmkini, qayğıkeşliyi, dürüstlüyü, zəhmətkeşliyi ilə fərqlənib.



O, idmanın karate növünə maraq göstərib, davamlı şəkildə məşqlər edib, fiziki hazırlıq cəhətdən möhkəm və çevik olmağı qarşısına məqsəd qoyub.

Təngəaltı kənd tam orta ümumtəhsil məktəbini bitirib. Şagird ikən tarix, fizika, kimya, çağırışaqədərki hazırlıq, fiziki tərbiyə fənləri ilə daha çox maraqlanıb, məktəbin ictimai tədbirlərində fəal iştirak edib, müəllimlərinin və sinif yoldaşlarının hörmətini qazanıb.

1993-cü ilin aprel ayında Rizvan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. O vaxt fəaliyyət göstərmiş 25035 saylı hərbi hissədə (sonuncu dislokasiya yerində hazırda Daxili Qoşunların Hərbi İnstitutu yerləşir) ilkin təlim keçdikdən sonra hərbi and içib. Sonra 17073 (hazırda mövcud deyil) və 25032 saylı hərbi hissələrdə xidmətini davam etdirib. Arxiv arayışında onun 25032 saylı hərbi hissənin motoatıcı bölüyünün zirehli döyüş maşınında PKP pulemyotu nişançısının köməkçisi vəzifəsində xidmət keçdiyi qeyd olunub. Əsgər olaraq Vətən qarşısında borcunu layiqincə yerinə yetirib, hərbi biliklərə əzmlə yiyələnib, həvalə edilən vəzifələrin öhdəsindən bacarıqla gəlib, komandirləri tərəfindən qarşıya qoyulan tapşırıqlara məsuliyyətlə yanaşıb.

Quba rayonunun Çiçi kəndində yaşayan Daxili Qoşunların sabiq hərbi qulluqçusu, ehtiyatda olan çavuş Bahəddin Eldarov müharibə veteranıdır. O, Rizvanla birlikdə eyni hərbi hissələrdə xidmət edib və döyüş yolu keçib. Şəhid haqqında suallarımı cavablandıraraq onun vətənpərvər, intizamlı, komandirlərinin və yoldaşlarının hər bir vəziyyətdə arxalana biləcəyi hərbçi olduğunu söylədi. Bahəddin bildirdi ki, hərdən Rizvanla oturub ötən günlər barədə söhbət ediblər, doğma kəndlərini, əzizlərini yada salıblar. Valideynlərinin onu hərbi xidmətə yola salarkən öyüd-nəsihətləri haqqında söz düşdükdə Rizvan oğul olaraq onların yanına alnıaçıq və üzüağ qayıdacağına ümid etdiyini vurğulayıb.

1993-cü ilin noyabr ayında 25032 saylı hərbi hissənin şəxsi heyəti sıralarında onlar Beyləqan-Füzuli döyüş zonasına göndəriliblər. Həmin vaxt ön cəbhədə vəziyyət ağır idi. Füzuli rayonu ərazisinin böyük hissəsi işğal olunmuşdu. Düşmən rayonun digər kəndlərini də ələ keçirməklə Beyləqan istiqamətində hücuma başlamağa can atırdı. Məhz belə bir gərgin günlərdə Daxili Qoşunların 67987, 99713 və 25032 saylı hərbi hissələrinin şəxsi heyəti Füzuli rayonu ərazisində ön cəbhənin cənub cinahının müdafiəsində dayanıb. Hərbi qulluqçularımız yerləşdikləri mövqelərdə erməni işğalçılarının hücumlarının qarşısını qətiyyətlə alıblar. Bu döyüşlər zamanı Rizvan qorxmaz və cəsur hərbi qulluqçu kimi vuruşub, müharibə şəraitinin əzab-əziyyətləri onu ruhdan salmayıb.

1994-cü ilin yanvar ayında Horadiz istiqamətində ordu hissələri və Daxili Qoşunların şəxsi heyətinin hücum əməliyyatı uğurla nəticələnib. Belə ki, Füzuli rayonunun bir sıra kəndləri, o cümlədən Horadiz qəsəbəsi (hazırda şəhər), habelə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilib. Ön cəbhədə davamlı hərbi məğlubiyyətlərdən sonra ilk dəfə əsaslı dönüş vəziyyəti yaradan bu genişmiqyaslı hücum əməliyyatının gedişində Daxili Qoşunların zabit, gizir, çavuş və əsgərləri igidlik nümunələri göstəriblər.

Veteran B.Eldarovun sözlərinə görə, qeyd edilən hücum əməliyyatı zamanı Rizvan cəsarətlə yağının üzərinə atılıb, öz silahı ilə düşmənin postlarına tutarlı atəş zərbələri endirib. Torpaqlarımızın azad olunduğunu görmək onda ruh yüksəkliyi yaradıb.

1994-cü il yanvarın 18-də Horadiz ətrafında döyüş mövqeyimizin ermənilər tərəfindən atəşə tutulması nəticəsində Rizvan sinəsindən ağır yaralanıb. Güllə yarası almış döyüşçü ön mövqedən arxaya təxliyə olunub. "O, yaralananda mən cəld özümü ona yetirdim. Sinəsinin qana boyandığını gördüm. Məni görəndə üzü güldü və "özünü çatdırdın" dedi. "Narahat olma, hər şey yaxşı olacaq" söylədim. Ancaq o, "yox" deyərək başını yellətdi. İlk tibbi yardım göstərib, onu səhra lazaretinə çatdırdıq. Oradan mən döyüş mövqeyinə qayıtdım. Rizvanın şəhid olması xəbərini sonradan onun Mehrab adlı qohumundan eşitdim və çox sarsıldım" - deyə Bahəddin danışdı.




Şəhidin qohumu M.Osmanov da Birinci Qarabağ müharibəsinin iştirakçısıdır. Rizvanın qeyrətli və mərd bir gənc olduğunu bildirdi. Bahəddinin şəhid haqqında verdiyi məlumatları o da təsdiqlədi.

Quba Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən ölüm haqqında şəhadətnamədə də əsgər R.Cəbrayılovun 18 yanvar 1994-cü ildə Füzuli rayonu ərazisində şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Vətən uğrunda şəhadətə yüksələn Rizvan Təngəaltı kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 mart 1995-ci il tarixli müvafiq qərarı ilə Təngəaltı kənd orta ümumtəhsil məktəbinə şəhidin adı verilib. Məktəbin önündə döyüşçünün büstü ucaldılıb.

Qeyd edim ki, Rizvan Təngəaltı kəndinin ilk şəhididir. Bu yurdun digər şəhidi isə 2023-cü il sentyabrın 19-dan 20-dək Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı həlak olub.

Sadıq Quliyevin "Çiçi haqqında tarixi-etnoqrafik oçerklər" kitabında və "Şəfəq" qəzetində şəhid hərbi qulluqçumuz haqqında məqalələr işıq üzü görüb.

Cəbrayılovlar ailəsi Rizvanın şəhid olmasından sonra ağrı-acı ilə yaşayıb, həyat ötən illərdə onları yeni sarsıntılarla üzləşdirib. 2003-cü ildə ailə başçısı H.Cəbrayılov xəstəlikdən dünyasını dəyişib. Şəhidin qardaşı Mahir Cəbrayılov ürək tutmasından, Birinci Qarabağ müharibəsi iştirakçısı olan digər qardaşı Mehman Cəbrayılov isə 2023-cü ildə beyninə qan sızmasından vəfat ediblər. Üç oğul itirmiş Füruzə xanım fədakar anadır, el-obasının ağbirçəyidir. Qəlbində hər bir övladın öz yeri var, onlara xeyir-duasını heç vaxt əsirgəməyib. Dərdli ürəyinə təskinlik verən ləyaqətli övladlar yetişdirməsi və əbədiyyən müqəddəs məqamda olacaq şəhidin valideyni olmasıdır.

44 günlük Vətən müharibəsi və antiterror əməliyyatında qazanılan möhtəşəm hərbi zəfər nəticəsində bütün şəhidlərimizin qisasları alınıb, onların hər birinin ruhu şaddır.

Allah şəhidlərimizə rəhmət eləsin!

**Yalçın Abbasov**

4_Layout 1 29.07.2026 15:50 Page 1



# TİBB XİDMƏTİ VƏZİFƏLƏRİNİ TƏLƏBLƏRƏ UYĞUN İCRA EDİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir.



16073 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti də vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidmətinin tibb məntəqəsinin rəisi tibb xidməti leytenantı Söhrab Muxtarzadə şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, sanitariya-gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.

Tibb xidməti leytenantı S.Muxtarzadə bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb məntəqəsinin feldşeri kiçik gizir Əhmədağa Balayev, tibb məntəqəsinin sanitar təlimatçı-dezinfektoru baş çavuş Seymur Siraciyev qarşıya qoyulan tapşırıqları uğurla və vaxtında icra edirlər.

Zabit söylədi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət qənaətbəxşdir. Həmçinin qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, sağlamlığında problem aşkarlanan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur. Bölmələrdə gündəlik olaraq, səhər və axşam saatlarında termometriya aparılır.



Bir sözlə, şəxsi heyətin sağlamlığı etibarlı əllərdədir.

**kapitan Xədicə Hacızadə**

# ŞƏXSİ HEYƏTİN NORMAYA UYĞUN KEYFİYYƏTLİ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunların komandanlığının diqqət yetirdiyi əsas məsələlərdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlıqlarının qorunması və səhhətlərinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.



99713 saylı hərbi hissənin maddi-texniki təminat xidmətlərinin ərzaq xidmətinin rəisi mayor Elmar Əkbərov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissənin komandanlıqlarının qarşıya qoyduqları ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.

Mayor E.Əkbərov şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri rasiona daxildir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkil olunduğunu bildirdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.



Zabit görülən işlərdə baş çavuşlar Sahib Həsənovun, Elşan Tamazanovun zəhmətlərini xüsusilə vurğuladı. Onların öz vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün əməklərini əsirgəmədiklərini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında aşpazlardan Niyar Vəliyevanın, Nəcibə Əhmədovanın, Sima Məhərrəmovanın, Zülfiyə Cəfərovanın və Nuranə Qədirovanın fəaliyyətini müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

*Hakim məsləhəti*

# GÜNVURMA VƏ İSTİVURMANIN TƏSİRİNDƏN NECƏ QORUNMALI?

Yay mövsümündə havanın hərarətinin yüksək olması, atmosfer təzyiqinin normadan yuxarı qalxması insanlarda, xüsusən də meteohəssas insanlarda ciddi fəsadlar yaradır. Qızmar günəş şüaları altında uzun müddət fasiləsiz işlə məşğul olmaq, yürüşlər etmək insanları günvurma və istivurma kimi real təhlükələrlə üzləşdirir. Bu baxımdan belə təhlükələrdən qorunmaq məqsədilə şəxsi heyətin tibbi maarifləndirilməsi mühüm əhəmiyyət kəsb edir.




Günvurma günəş şüalarının uzun müddət ərzində orqanizmə təsiri nəticəsində, əksər hallarda başıaçıq xeyli müddət gün altında qaldıqda baş verir. Belə hallarda gün şüalarının təsiri nəticəsində baş beyinə qan axını artır və beyinin qan dövranı pozulur. Bu zaman zərərçəkəndə zəiflik, başgicəllənmə, güclü baş ağrıları, qulaqlarda küy, təngnəfəslik, nəbzin tezləşməsi, üşütmə, ürəkbulanma, qusma, hərarətin 40 və daha artıq dərəcəyə yüksəlməsi kimi əlamətlər qeyd edilir. Ağır hallarda qıcolmalar və huşun itirilməsi də ola bilər. Bəzi hallarda bu əlamətlər dərhal, digər hallarda isə açıq günəş altında qaldıqdan və evə gəldikdən bir neçə saat sonra baş verir.




**Günvurmanın ilkin əlamətləri hiss olunduqda:**

**1.** Zərərçəkəni kölgəyə və ya sərin otağa aparmaq, onu sıxan paltarları çıxarmaq, yarıoturaq vəziyyətdə uzatmaq lazımdır (başı bədənindən yuxarıda olmalıdır).

**2.** Zərərçəkənə soyuq su vermək, üzünü və sinəsini soyuq su ilə silmək, başına, boyunun yan tərəflərinə, qoltuqaltı və qasıq nahiyələrinə (iri damarlar keçən yerlər) buz və ya bu mümkün olmadıqda soyuq su ilə kompres etmək lazımdır. Bu zaman əl və ayaqlara xardal kağızı da qoymaq olar. Daha bir üsul isə paltarını soyundurub zərərçəkəni soyuq suda isladılmış parçaya bükmək, başına buz qoymaqdır.

**3.** Zərərçəkənin hərarəti normaya çatdıqda onu quru parçaya və ya dəsmala bükmək olar.

**4.** Xəstənin vəziyyəti ağırlaşarsa, dərhal təcili tibbi yardım çağırmaq lazımdır.

**5.** Huşunu itirdiyi halda isə zərərçəkənə naşatır spirti iylətmək, tənəffüs olmadıqda süni tənəffüs vermək tələb olunur.

**İstivurma əsasən uzun müddət ərzində havası boğanaq olan yerlərdə (hamamda, saunada, avtobusda, metroda və s.) qalma zamanı, çölə çıxarkən havaya uyğun olmayaraq çox isti geyimdən istifadə edildiyi hallarda, çimərlikdə voleybol, futbol və s. oyunlar oynanıldığı zaman baş verir. Uşaqların və yaşlı adamların orqanizmində istilik mübadiləsi zəif şəkildə tənzimləndiyi üçün istivurma onlarda daha tez-tez rast gəlinir.**

İstivurma qəflətən meydana çıxır: ilk baxışdan kifayət qədər sağlam görünən insan birdən-birə əzgin olur, onun hərarəti 40 və daha artıq dərəcəyə yüksəlir, bəzi hallarda qıcolmalar, sayıqlama və halusinasiyalar (qarabasmalar) baş verir. Xəstənin sifəti əvvəlcə qızarır, sonra isə birdən-birə avazıyır. Nəbz sürətlənir, tənəffüs səthi olur, bəzən qusma da qeyd edilir. Bu zaman ilk tibbi yardım günvurmada olduğu kimidir.

Zərərçəkənin vəziyyəti ağırlaşarsa, dərhal təcili tibbi yardım çağırmaq və ya ilk tibbi yardım göstərdikdən sonra onu mümkün qədər tez bir zamanda yaxınlıqdakı tibb müəssisəsinə çatdırmaq tələb olunur.

**Tibb xidməti**

*İdman*

# İDMANÇI ƏSGƏRİMİZİN NÖVBƏTİ QƏLƏBƏSİ

Daxili Qoşunların İdman komandasının müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Cavad İsayev 2006-cı il fevralın 27-də Bakı şəhərində anadan olub. 2012-2023-cü illərdə Masallı rayonu Nicat Həsənov adına Göyəçöl kənd tam orta məktəbində təhsil alıb. O, 13 yaşından idmanın sambo növü ilə məşğul olub. Azərbaycan Sambo Milli komandasının üzvüdür.

2025-ci ildən Azərbaycan Respublikasının "idman ustası"na namizəddir.

Artıq uzun zamandır ki, peşəkar idmanla məşğul olan əsgər C.İsayev xidmət etdiyi bölməni layiqincə təmsil edib. Belə ki, bu ilin iyul ayının 3-dən 5-dək sambo üzrə ölkə çempionatında iştirak edərək gümüş medala layiq görülüb.

Qeyd edək ki, idmançı əsgərimiz 2024-cü ildə dünya çempionatının, 2025-ci ildə Avropa çempionatının, bir sıra beynəlxalq yarışların mükafatçısı və ölkə çempionatının qalibi olub.




Azərbaycan Respublikasının bayrağını dəfələrlə ucaldan idmançı hərbi qulluqçumuza bu yolda nailiyyətlər arzulayırıq.

**kapitan Şahin Cəfərzadə**

*NÜMUNƏVİ XİDMƏT*

# BACARIQLI VƏ İNTİZAMLI HƏRBİ QULLUQÇU

Daxili Qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsi, avtomobil və zirehli texnikanın idarə edilməsi, şəxsi heyətin, habelə xüsusi yüklərin vaxtlı-vaxtında çatdırılmasında peşəkar sürücülərin rolu böyükdür.

16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri polkovnik-leytenant Cavid Tağıyev üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirən hərbi qulluqçulardan çavuş Samiq Mirzəyevin adını çəkdi. O, layiqli xidməti, nizam-intizamı ilə yoldaşlarına nümunədir.



Çavuş S.Mirzəyev 1992-ci ilin iyun ayının 15-də Lerik rayonunun Livədirqə kəndində anadan olub. 1998-2007-ci illərdə doğma kəndində yerləşən Əbülfəz Məmmədov adına orta məktəbdə təhsil alıb. Daha sonra təhsilini Lerik rayonunun Murya kəndindəki E.Şahpələngov adına tam orta məktəbdə davam etdirib. 2010-cu ildə təhsilini başa vurub. 2010-cu ilin iyul ayından 2011-ci ilin oktyabr ayınadək Müdafiə Nazirliyinin Qazax şəhərində yerləşən hərbi hissələrindən birində müddətli həqiqi hərbi xidmət keçib. Müvafiq kursu başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub və xidmətini ləyaqətlə davam etdirib. 2015-ci ilin yanvar ayında ehtiyata buraxılıb. Lakin hərbi xidmətə həvəsi olduğu üçün 2016-cı ilin aprel ayında Daxili Qoşunların sıralarında xidmətə qəbul olunub. 16073 saylı hərbi hissədə müxtəlif vəzifələrdə qarşısına qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirib. 2018-ci ilin mart ayından xüsusi təyinatlı dəstənin avtomobil yarımqrupunun sürücüsüdür.

Xidməti vəzifələrini vicdanla, nizamnamələrin tələblərinə uyğun icra edən Samiq həm hissə komandanlığının, həm də yoldaşlarının hörmətini qazanıb, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur. Daim üzərində çalışır, özünə qarşı tələbkardır. Hərbi xidmətə ciddi münasibətilə seçilir. Əzmkarlığı ilə yanaşı, lazım olduqda yoldaşlarına da köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir. Təhkim olunmuş nəqliyyat vasitəsinin sazlığını hər gün yoxlayan hərbi qulluqçu xırda nasazlıqlar aşkar olunduqda dərhal aradan qaldırılması üçün tədbirlər görür. Texnikanın xüsusiyyətlərinə yaxşı bələddir, təhlükəsizlik və yol hərəkəti qaydalarını bilir, onlara tam olaraq riayət edir.

Çavuş S.Mirzəyev işinin məsuliyyətini dərk edir, xidməti vəzifələrini düzgün yerinə yetirir. Hər zaman parkda daxili qaydalara ciddi əməl edir. Döyüş və peşə hazırlığını təkmilləşdirir. Funksional vəzifələrinə, verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşdığına görə dəfələrlə mükafatlandırılıb.

Hərbi qulluqçumuza xidməti fəaliyyətində uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XƏBƏRLƏR

*- YENİLİKLƏR -*

### ASELSAN "Polad Qübbə" üçün antidron imkanlarını nümayiş etdirib

ASELSAN şirkəti Ankara şəhərində keçirilmiş canlı nümayiş zamanı pilotsuz uçuş aparatları (PUA) əleyhinə inteqrasiya olunmuş müdafiə sistemini təqdim edib.

ASELSAN-dan "Poliqon"a verilən məlumata görə, tədbirdə müxtəlif PUA təhdidlərinə qarşı İHTAR antidron, EJDERHA yüksək güclü mikrodalğalı silah və GÖKBERK lazer silah sistemlərinin koordinasiyalı fəaliyyəti nümayiş etdirilib.

Nümayiş çərçivəsində müxtəlif istiqamətlərdən yaxınlaşan sürü tipli, fiber-optik və simsiz idarəolunan dronların iştirak etdiyi real əməliyyat ssenarisi təqdim olunub. ASELSAN inteqrasiya olunmuş komanda-idarəetmə arxitekturası vasitəsilə bütün təhdidləri uğurla aşkarlayıb, izləyib və həm "soft-kill", həm də "hard-kill" imkanlarından istifadə edərək zərərsizləşdirib.



Canlı nümayiş ASELSAN-ın qabaqcıl müşahidə imkanlarını, süni intellekt dəstəkli təhdid qiymətləndirməsini və yönəldilmiş enerji sistemlərini vahid komanda-idarəetmə strukturu daxilində birləşdirən inteqrasiya olunmuş PUA əleyhinə arxitekturasının effektivliyini nümayiş etdirib. Şirkət yeni nəsil müdafiə həllərinin bir-birini tamamlayan imkanlarını real əməliyyat şəraitində nümayiş etdirməklə müasir döyüş meydanının tələblərinə uyğun innovativ texnologiyalar hazırlamaq öhdəliyini bir daha vurğulayıb.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı mayor Cavid Abdullayevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası istefada olan **polkovnik-leytenant Sultan Mahmudovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Şahin Cəfərzadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000